HƏSƏNOVA L.L.
*BDU-nun «Azərbaycan tarixi» kafedrasının professoru, tarix elmləri doktoru*
SÜLEYMANOVA X.S.
*BDU-nun magistri*

# BAKI DÖVLƏT UNIVERSITETININ BEYNƏLXALQ ŞIRKƏTLƏRLƏ ƏMƏKDAŞLIĞI

Müxtəlif Beynəlxalq şirkətlərlə əməkdaşlıq Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələrində yeni istiqamətdir. Xüsusilə "Əsrin müqaviləsi" imzalandıqdan sonra xarici ölkələrin şirkətlərinin Bakıda fəaliyyəti genişlənmiş və Bakı Dövlət Universiteti ilə də əməkdaşlıqlar qurulmuşdur. Bakı Dövlət Universiteti ABƏŞ, MOBİL, İTOÇU, EKSON, BP və s. şirkətlərlə əməkdaşlıq edir. "1997/98-ci illərdə Bakı Dövlət Universiteti ABƏŞ-lə birgə keçirdiyi "Azərbaycan neftinin dünəni, bu günü və sabahı", "Neft və Azərbaycanın gələcəyi"mövzularına həsr edilmiş elmi müsabiqələr gənc alim və tələbələrdə böyük marağa səbəb olmuş, müsabiqələrin yekun konfranslarına 216 elmi-tədqiqat işi təqdim edilmişdir" (9, s. 80). Müsabiqələrin müxtəlif pillələr üzrə qalibləri pul və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

"1999-cu ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və BP AMOKO şirkətinin birgə təşkil etdikləri "Böyük ipək yolu və Azərbaycan nefti" adlı müsabiqədə Universitetin gənc alimləri mükafatlandırılmışdır" (1, s. 15).

1999-cu ildə şərqşünaslıq fakültəsində Yapon dili şöbəsinin açılması ilə əlaqədar Yaponiyanın İTOÇU şirkəti bu şöbənin dərsi üçün lazım olan dərs kitabları və bir sıra başqa ləvazimatlarla təchiz edilmişdir.Yaponiyanın İTOÇU şirkətinin köməkliklə 1998-ci ildə yapon alimləri prof. Sakamoto, 1999-cu ildə isə prof. Toyşima beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsində seminarlar aparmışlar.

"2000-ci ildə dekabr ayının 10-12 tarixində Bakı Dövlət Universitetinin linqafon laborotoriya ləvazimatının təchizi ilə əlaqədar JİCS təşkilatının 2 nümayəndəsi Bakı Dövlət Universitetinin məsul şəxsləri ilə görüş keçirmiş və lazım olan işin aparılmasında onlara yaxından köməklik göstərmişdir" (2, s. 184).

2001-ci ildə ABŞ-ın ACSTRA İACCELS qeyri dövlət təşkilatının keçirdiyi müsabiqənin qalibi kimi 5 nəfər I kurs tələbəsi ABŞ-ın müxtəlif universitetlərində təhsillərini davam etdirmişlər.

EKSON, MOBİL və digər şirkətlər Bakı Dövlət Universitetinin elmi kitabxanasının zənginləşməsində yaxından köməklik göstərirlər. Universitet göstərilən istiqaməti gələcəkdə də inkişaf etdirməyi planlaşdırır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Bakı Dövlət Universiteti beynəlxalq tədris proqramlarında iştirak etməyə başlamışdır.

Bakı Dövlət Universiteti Avropa Birliyinin elmin və təhsilin inkişafı naminə TASİS (TEMPUS) proqramında iştirak edir. Tarix fakültəsi TASİS (TEMPUS) proqramı çərçivəsində Musiqi Akademiyası ilə birgə "Arxeologiya tarixi və musiqi" qrantını udmuş və bu proqramın çərçivəsində bir sıra beynəlxalq tədbirlərin iştirakçısı olmuşdur. Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsi 1995-ci ilin payızından Avropa Birliyinin keçmiş SSRİ respublikaları və Monqolustana yardımı üzrə (TEMPUS) TASİS proqramı çərçivəsində elmin və təhsilin inkişafı üçün "Avropa - Xəzər dənizi" layihəsinə qoşulmuşdur. Layihənin gerçəkləşməsində Bakı Dövlət Universitetinin tərəfdaşları Fransanın Nits və Qrenobl, İtaliyanın Genuya universitetləri oldular və həmin

dövrdən başlayan birgə əmkdaşlıq bu gün də davam edir. Nits (Fransa) universitetinin professoru cənab Jan Pol Qişar proqramın koordinatoru təyin edilmiş və real vəziyyətlə tanış olmaq məqsədilə o bir neçə dəfə respublikamızda olmuşdur. 1997-ci ilin yanvarında fəaliyyətə başlayan layihənin müddəti 1999-cu ilin sonunda başa çatmışdır. Bu məqsədlə 486.496 ekü maliyyə vəsaiti ayrılmış və smetada nəzərdə tutulmuş şəkildə istifadə olunmuşdur. Ötən müddətdə Beynəlxalq münasibətlərlə Beynəlxalq hüquq fakültəsində təhsilin müasir tələblər səviyyəsində qurulması üçün xeyli iş görülmüş, xüsusilə magistratura təhsilinin təşkilində səmərəli addımlar atılmışdır.

"Fakültə əməkdaşlarının böyük əksəriyyəti TASİS (TEMPUS) proqramı çərçivəsində 1999-cu ildə Fransa və İtaliyada elmi-tədris ezamiyyətində olmuş, magistrlar təcrübə mübadiləsi keçmişlər" (1, s. 123-124).

2000-ci ildə Universitetin professor-müəllimləri və tələbələri bir neçə beynəlxalq proqramların qalibləri olmuşlar. Belə ki, qeyri-üzvi kimya kafedrasının müdiri k.e.d. prof. M.B.Babanlı İNTAS proqramı üzrə Moskva Dövlət Universiteti, Stokholm Texnologiya İnstitutu, Almaniya Dramstat Texniki Universiteti əməkdaşları ilə birgə hazırlanmış elmi texniki layihəsinin xüsusi qrantına layiq görülmüşdür. 2000-ci ilə Vaşinqtonda keçirilən "Konstitusiya, şəxsiyyət və hüquqi dövlət" hüquq olimpiadasında Universitetin komandası yüksək bal toplayaraq birinci yer tutmuşdur. 2001- ci ildə DAAD (Alman Akademik Mübadilə Xidməti) və Almaniyanın Kapernikus proqramının keçirdiyi müsabiqənin qalibi kimi universitet əməkdaşları təqaüdlərə layiq görülmüşlər. "Fevralın 12-də Belçikanın Brüssel şəhərində Azərbaycan, Türkiyə, İtaliya və Ukrayna alimləri tərəfindən birgə işlənmiş "Natamam informasiya şəraitində optimal idarəetmənin həlli üsulları" adlı layihə NATO-nun 30.000 ABŞ dolları həcmində qrantını udmuşdur" (3, s. 179).

"2003-cü ildə 3 nəfər I kurs magistrantı Almaniyanın DAAD təşkilatının keçirdiyi müsabiqənin qalibi olmuşdur" (5, s. 9).

2003-cü ildə Universitetimiz TEMPUS proqramı çərçivəsində "Cənubi Qafqaz dövlətlərində biotibbi və baytarlıq elmlərinin milli təkmilləşdirmə mərkəzlərinin yaradılması" adlı layihənin müsabiqə yolu ilə qalibi olmuşdur. Bu layihə 2005-ci ildə başa çatmış və onun əsasında universitetin biokimya kafedrasında "immunologiya" laborotoriyası yaradılmışdır.Bakı Dövlət Universiteti regionun və dünyanın qabaqcıl təhsil ocağı kimi hər il dünyanın müxtəlif universitetləri ilə 2 mln ABŞ dolları məbləğində proqram və qrantar üzərində işləyir.

2004-cü ildə Avropa Birliyinin İNTAS proqramının planlaşdırılmış elmi layihəsinin qalibi olmuş kimya fakültəsinin qeyri-üzvi materialşünaslıq ETL-nın elmi işçisi F.İ.Rüstəmli 4 ay müddətinə Moskva Dövlət Universitetində elmi-tədqiqat işi yerinə yetirmişdir.

"2006-cı ildə Alman Akademik Xidmətinin (DAAD) keçirdiyi müsabiqənin qalibi kimi 3 nəfər magistrant Almaniyanın müxtəlif universitetlərində təhsillərini davam etdirirlər" (8, s. 326). 2006-cı ildə Geologiya fakültəsinin "Faydalı qazıntılar" kafedrasının müdiri prof. V.B.Babazadə ABŞ-ın mülki tədqiqatlar və inkişaf fondu (CBDF) proqramı üzrə "Kiçik Qafqazın qızıl yataqları, onların geoloji-genetik modellərinin tərtib proqnozlaşdırma meyarı kimi" mözusunda qrant layihəsi üzrə elmi-tədqiqat işini davam etdirmişdir. Bu layihə 2005-2007-ci illər üçün CRDF fondunun 75.000 ABŞ dolları həcmində qrantına layiq görülmüşdür.

"Bakı Dövlət Universitetinin son iştirak etdiyi proqramlar bunlardır: "7-ci Çərçivə proqramı", "CRDF", "ABA SEELİ". Həmçinin BP-nin işəgötürmə proqramı ilə bağlı universitet tələbələrin iştirakı ilə yığıncaq keçirilib" (11).

Bakı Dövlət Universitetinin beynəlxalq əlaqələrində xarici ölkələrin respublikamızda yerləşən səfirlik və nümayəndəlikləri ilə əməkdaşlıq mühüm yer tutur. Bakı Dövlət Universiteti respublikamızda yerləşən Türkiyə, Amerika Birləşmiş Ştatları, İngiltərə, İsrail, İran, Yaponiya, Ruminya, Fransa, Çin və digər ölkələrin səfirlikləri ilə mütəmadi görüşlər keçirir. Bu görüşlərin nəticəsində Bakı Dövlət Universiteti qeyd olunan ölkələrin universitetləri, elmi mərkəzləri ilə yaxından əməkdaşlıq edir. Türkiyə, Fransa, İran, İsrail, Yaponiya səfirliklərinin köməyi ilə universitetdə müvafiq kabinetlər yaradılmış və onlar dərs vəsaiti və audio - videomaqnitafonlarla təmin edilmişdir.

"1999-cu ildə "SOROS" fondundan Parisdə Beynəlxalq seminarda iştirak etmək qrantını prof. M.Ə.Məmmədov almışdır" (1, s. 124 ). 2000-ci ildə dos. Ç.N. İsmayılovun təqdim etdiyi "Tarazlı inkişaf layihəsi üzrə" Xəzər elmi-tədqiqat mərkəzi və Beynəlxalq Elm və Təhsil İnstitutu ilə birgə Bakı Dövlət Universitetində Azərbaycan və Mərkəzi Asiya Respublikalı mütəxəssisləri üçün treyniq kurs keçmişdir.

2002-ci ildə Respublikada analoqu olmayan Almaniyanın istehsalı olan BRUKER - 300 meqa hers Nüvə Maqnit Rezonansı (NMR) alınaraq quraşdırılmışdır.

"2002-ci ildə ABŞ-ın Azərbaycandakı İREX təşkilatının keçirdiyi "Azadlıq dəstək aktı" proqramının qalibi kimi jurnalistika, Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakültəsinin tələbələri ABŞ-ın müxtəlif universitetlərində təhsil alıblar" (10, s. 9).

ABŞ Dövlət Departamentinin və Mədəniyyət məsələləri üzrə bürosunun İREX xətti ilə Azərbaycanda ictimai elmlərin tədrisi ilə əlaqədar verilmiş proqramlarına dair keçirilmiş müsabiqənin qalibi kimi həmin proqramların işində iştirak etmək üçün Tarix fakültəsinin "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının prof. M.C.Qasımlı ABŞ-a ezam edilmişdir.

"2004-cü ildə Yaponiyanın Fiyitsu Yardım və Xidmət şirkəti Yaponiyanın Azərbaycandakı səfirliyinin təşəbbüsü ilə 2 tələbəmizi müsabiqə yolu ilə seçərək öz şirkətlərinə işə qəbul etmişlər" (6, s. 156).

2005- ci ildə şərqşünaslıq fakültəsində Çin Xalq Respublikası, Pakistan İslam Respublikası və İsrail dövlətinin ayırdığı qrant əsasında bu ölkələrin səfirliklərin köməyi ilə dil və ədəbiyyat kabinələri açılmış, əsaslı şəkildə təmir olunmuş, televizor, videomaqnitofon, peyk antenası, kseroks, kompüter, mebel, tədris avadanlıqları və kitablarla təchiz edilmişdir. "2005-ci ildə həmçinin Yaponiya hökumətinin Bakı Dövlət Universitetinə ayırdığı 350.000 ABŞ dolları dəyərində qrantla şərqşünaslıq fakültəsinin tərkibində yeni yaranmış Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrasında 3 linqafon laborotoriyası yaradılmışdır" (7, s. 8).

2006 – cı il mart ayından başlayaraq Azərbaycanda təmsil olunan xarici ölkə səfirləri müntəzəm olaraq Bakı Dövlət Universitetinin tələbə və professor-müəllim heyəti qarşısında mühazirələr oxuyur, çıxışlar edirlər. "2006 – cı ildə ABŞ-ın Azərbaycandakı Beynəlxalq Təsərrüfat və Mübadilə Şurası (İREX) təşkilatının idarə etdiyi Avrasiya Tələbə mübadiləsinin proqramının qalibi kimi 4 tələbə, 1 magistrant ABŞ-ın müxtəlif universitetlərində təhsillərini davam etdirirlər" (8, s. 326). Universitetin elmi kitabxanası da xarici ölkə səfirlikləri ilə də əlaqələr saxlayır. Azərbaycan dili, tarixi və mədəniyyətinin xarici ölkələrdə yayılmasında bu əlaqələrdən istifadə edir. Misal üçün Bakı Dövlət Universiteti Avstriyanın Vyana universitetində Azərbaycan dilinin tədrisi üçün zəruri olan dərs vəsaitini bu ölkəyəgöndərmişdir. Universitetin bu istiqamətdə əlaqələri ildən-ilə artmaqdadır.

## ƏDƏBİYYAT

1.M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetində 1999-cu ildə görülmüş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2000.
2.Bakı Dövlət Universitetində 2000-ci ildə görülmüş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2001.
3.Bakı Dövlət Universitetində 2001-ci ildə görülmüş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2002
4.2002-ci ildə görülmüş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2003
5.2003-cü ildə görülmüş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2004
6.Bakı Dövlət Universitetində 2004-ci ildə yerinə yetirilmiş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2005
7.Bakı Dövlət Universitetində 2005-ci ildə yerinə yetirilmiş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2006
8.Bakı Dövlət Universitetində 2006-cı ildə yerinə yetirilmiş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2007
9.Məhərrəmov M.A. "Bakı Dövlət Universiteti" Bakı, 2000.
10. "Bakı Universiteti" qəzeti, 30 yanvar 2008-ci il.

**Л.Л.ГАСАНОВА**
**Х.С.СУЛЕЙМАНОВА**

### СОТРУДНИЧЕСТВО БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА С МЕЖДУНАРОДНЫМИ КОМПАНИЯМИ (ПЕРИОД НЕЗАВИСИМОСТИ)

Сотрудничество с международными компаниями Бакинского Государственного Университета является новым направлением в международных отношениях периода независимости. В частности после заключения 20 сентября 1994 года «Контракта Века» некоторые иностранные компании расширили свою деятельность в Баку, и начали осуществлять сотрудничество с Бакинским Государственным Университетом. В настоящее время БГУ сотрудничествует с МОК,МОБИЛ, ИТАЧИ, ЕКСОН, БП и другими компаниями.

**L,L,HASANOVA**
**X,S,SULEYMANOVA**

### BAKU STATE UNIVERSITY' COLLABORATION WITH INTERNATIONAL COMPANIES

In sovereignty times the collaboration with International companies is new advance in international relations of Baku State University. Particularly , in 20th September,1994 after the signed of "Age Treaty " , some international collaborations have extended their activities in Baku and collaborated with Baku State University. At present BSU collaborates with AIOC, ITACHU, MOBIL , EKSON and etc.

***Rəyçilər: t.e.n.A.Rzayev, t.e.d.R.C.Süleymanov.***
***BDU-nun «Azərbaycan tarixi (humanitar fakültələr üzrə)» kafedrasının 22 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №10)***